# Azərbaycanın onillik inkişaf konsepsiyası

Ölkəmizdə bugünədək sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə bir sıra vacib dövlət proqramları həyata keçirilmişdir. Nəticədə, iqtisadiyyatımız sürətlə inkişaf etmiş, əhalinin sosial müdafiəsi xeyli gücləndirilmişdir. Bu, əməkhaqları, pensiyalar, təqaüd və müavinətlərin artırılmasında, yoxsulluğun səviyyəsinin azaldılmasında özünü biruzə vermişdir. Lakin görüləsi işlər hələ çoxdur.

***Bu günlərdə Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olundu. Əlbəttə, sentyabrın 27-də ağır müharibəyə cəlb olunmuş canlı qüvvə və maliyyə itkilərinə baxmayaraq qələbəni təmin etmiş bir ölkə üçün bu sənədin əhəmiyyəti olduqca böyükdür. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" növbəti 10 il ərzində ölkə qarşısında həlli vacib olan istiqamətləri müəyyənləşdirdi.***

ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaq. Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcək.

Ölkəmizin onillik inkişafına hesablanan düşünülmüş və müəyyən edilmiş milli prioritetlər Cənubi Qafqazın Azərbaycan mərkəzli yeni geopolitik və geoiqtisadi mənzərəsini yaradacaq. Azərbaycanın qüdrətli və davamlı inkişaf dinamikasına sahib ölkə imicini qoruması və ən azı, gələcək 10 illiyə uğurla daşıması düşmənin və havadarlarının da öz daxili auditoriyalarına ünvanlanmış yalanlarını alt-üst edəcəkdir. Bu isə bir daha Azərbaycan vətəndaşı olmağın üstünlük reallıqlarını üzə çıxaracaq və ölkəmizdə dövlət və cəmiyyət birliyinin parlaq nümunəsinə çevriləcək.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, iqtisadi müstəqilliyimiz bizə müstəqil xarici siyasət aparmağa imkan yaradır. Bu səbəbdən, milli prioritetlərdə iqtisadiyyatın inkişafına xüsusi önəm verilir. Çünki iqtisadiyyatı davamlı və yüksək templə artırmaqla Azərbaycanda insanın inkişafı, adambaşına düşən milli gəlirin yüksək səviyyəyə qalxması gələcəyin qaçılmaz reallığıdır. Bu gün Azərbaycan sözdə deyil, reallıqda Cənubi Qafqazın ən güclü dövləti olduğunu sübut edir. Ölkədə mövcud olan müəyyən problemlərin aradan qaldırılması, cəmiyyət və dövlət arasında süni əngəllər yaradan baryerlərin götürülməsi, korrupsiya, monopoliya ilə mübarizənin sərtləşdirilməsi, məhkəmə və kadr islahatlarının aparılması, milli iqtisadiyyatın gücləndirilməsini də şərtləndirir. Dövlət başçısının son sərəncamı Azərbaycanın gələcək uğurlarını şərtləndirən əsas amillərdən biri olaraq, əhalimizin sosial-rifahının yüksəlişi ilə nəticələnəcək və bu proqramın nə qədər vacib və ardıcıl aparılması zəruriliyini ortaya qoyacaq.



Dünya iqtisadiyyatını ciddi itkilərə məruz qoyan koronavirus pandemiyası şəraitində ölkələrin öz dayanıqlı inkişafını qoruması həyati əhəmiyyətli məsələlərdən biridir. Bu işin ən çətin tərəflərindən biri də odur ki, bizim ölkəmiz həm də müharibəni yenicə bitirmişdir. Əlbəttə, qələbənin əldə olunması, iqtisadiyyatımızın inkişafı dediklərimizi təsdiqləsə də, bundan sonrakı illəri düşünmək və qəti qərar vermək mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, hazırda dövlətin davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur və bu prioritetlərin müəyyən edilməsi günün tələbidir. Çünki dünyada gedən siyasi-iqtisadi proseslər qarşıya iqtisadiyyatın idarə olunmasının təkmilləşdirilməsi vəzifəsini qoyur. Bu səbəbdən, sənəddə qeyd edildiyi kimi, qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulan məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunu, əsas sosial-iqtisadi inkişaf istiqamətlərini, eləcə də buna uyğun milli prioritetlərin müəyyən olunmasını gündəmə gətirir.

Prezident İlham Əliyevin sözügedən sərəncamında qeyd edilir ki, artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatını dəyişməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı vermişdir. Ölkəmiz regional iqtisadiyyatın lokomotivi olaraq, dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilmişdir. Buna görə də, milli prioritetlərin əsas məqsədi və hədəfləri məhz dövlətin qüdrətli olması və yüksək rifah cəmiyyətinin formalaşmasıdır. Bunun üçün güclü iqtisadiyyatın olması şərtdir. İndiyədək həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar buna real bünövrə yaratmışdır. Dövlət əhalinin maddi rifahını daha da yaxşılaşdırmaq üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf modelini seçmişdir. Bu baxımdan, milli prioritetlər mühüm dövlət konsepsiyasıdır və onun reallaşması üçün dövlət orqanlarının qarşısında mühüm vəzifələr durur.

Təsdiqlənən sənədə əsasən, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş prioritet reallaşdırılmalıdır. Bunlar, dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi. Bu prinsiplər dövlətin qarşıdakı illərdə əsas hədəflərini müəyyənləşdirən 10 illik inkişafın yol xəritəsidir. Bu beş prinsip həm də 44 günlük Vətən müharibəsindəki tarixi qələbənin davamlılığının təminatçısı rolunda çıxış edəcək.

Sənəddə qeyd edilir ki, Azərbaycan postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Bu isə olduqca mühüm məqamdır. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə dövlətin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir.

Sənədin ən mühüm məqamlarından birində qeyd edilir ki, qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından məcburi köçkün düşən insanların Vətənə qayıdışı təmin olunmalıdır. Bu qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və həmin

***Anar TURAN,***
***"Xalq qəzeti"***